# ULULARA SEVGİ İLƏ



*Vilayət AĞAYEV,*
*pedaqoq*

Əli Rza Xələflinin «Aşiqliyin işığında» kitabına toplanmış şeirlərini, xüsusən də, klassik ənənələr əsasında yazılmış qəsidə və təxmislərini ayrı-ayrı vaxtlarda sosial şəbəkələrlə yayımında oxumuşam. Xüsusilə, onun «Hələ dünya bilmir ki□» adlı qəsidəsi, səmimi ifadə etsəm, qəlbimi ovlamışdı. Mən tərənnümün, ilhamın poetik vüsətini bu əsərdə bütün varlığımla görürdüm, duyurdum. Düşünürdüm ki, gərək belə əsərlər geniş oxucu arenasına da çatsın. Söhbət əsərin istinad etdiyi tərənnüm qəhrəmanı ilə bağlıdırsa, gərək fikrimi daha geniş ifadə edim.

«Hələ dünya bilmir ki□» adlı qəsidənin tərənnüm olunan obrazı Əli ibn Abu Talibdir. Xalq onu Həzrəti Əli adı ilə tanıyır. Bu ada istinadən içilən and xalqımız arasında müqəddəs hesab olunub və bu anddan sonra kimsənin sözünü çevirməyiblər. Bu adda bir birləşdiricilik gücü var. Elə həmin qəsidənin ilk dəfə mətbuatda dərc olunan mətninin də epiqrafında müəllif belə yazıb: «Mən Əli ibn Abu Talibi təkcə din xadimi kimi yox, həm də ədalətli hakim, doğruluğun, düzgünlüyün mücahidi, parlaq natiq, böyük hərb xadimi, kamil dövlət başçısı, mükəmməl bir filosof kimi qavrayıram. Onun birləşdiricilik gücü bu gün də öz qüvvəsindədir». Müəllifin bu sözlərinə kimsənin şübhəsi olmaz. Çünki zamanından əsrlər keçsə də insanların Əliyə sevgisi azalmır. Tarixin ən çətin, ən keşməkeşli dönəmlərində onun parlaq obrazı təzədən yaddaşa qayıdır.

Əlinin vətən sevgisi, ədalətli hakim olması haqqında öz zamanından bəri fikir deyən, mülahizə yürüdən hər kəs birmənalı cavab verib.

Həzrəti Əlinin «Nəhcül-bəlağə» kitabı bir düşüncə xəzinəsi kimi bu gün də təkrar-təkrar öyrənilməkdədir. «Nəhcül-bəlağə»də Həzrəti Əlinin xütbələri toplanıb. Mən deyərdim ki, hər mətndə həyat təcrübəsindən qaynaqlanan çox dərin hikmətli kəlamlar var. Bu əsər təkcə öz zamanı üçün deyil, gələcəyin bütün insanlarını doğruluğa, düzgünlüyə, ən başlıcası, ədalətə, insanpərvərliyə çağırış motivləri ilə müşayiət olunur.

Qırx dörd günlük müharibədə xalqımız erməni faşizminə qalib gəldi. Bu qələbəni xalqımızın birliyi təmin etdi, müstəqillik dövrünün vətənpərvər gəncləri savaşda düşməndən nə qədər güclü olduqlarını göstərdilər.

Əlbəttə, Azərbaycan Ordusunun yenilməzlik əzmində tarixi qəhrəmanlarımızın örnək rolu az əhəmiyyət daşımır. Düşünürəm ki, onun inamlı və inadlı mübarizələrində sözü bütövlüyün də böyük rolu oldu. Ə.R.Xələflinin dəfələrlə qeyd etdiyi kimi, Ali Baş Komandan diplomatiya tariximizə də «sözümüz imzamızdır» düsturu ilə öz əzminin salnaməsini yazdı. Bütün bunlar Həzrəti Əli obrazında da parlaq xarakter cizgiləri kimi Azərbaycan xalqının yaddaşında yaşayır. Şübhəsiz, Əli obrazının yaddaşdan fəal düşüncəyə gətirilməsi insanların mənəvi saflığının qorunmasında, cəsarətin və qəhrəmanlığın təbliğində böyük təsiredici rola malikdir. Bu mənada mən Ə.R.Xələflinin «Aşiqliyin işığında» kitabını xüsusilə təqdir edirəm.

Müharibə vaxtı iki oğlunu savaşa göndərmiş bir ananın əllərini göyə qaldırıb «Allahım, Əli eşqinə xalqımı sındırma, Əli eşqinə oğullarımı qurban deyirəm. Təki ədalət qalib gəlsin, haqq öz yerini tutsun». Biz istəsək də, istəməsək də bu xitab minlərlə ananın, atanın dilindən səslənib. Demək, savaşa girən gənclərin ruhuna Əli eşqinin güc bəxş etməsini də qavramalıyıq. Bir sözlə, müasir gəncliyin vətənpərvərlik ruhunda böyüdülməsində Əli obrazı da xalqımızın digər qəhrəmanları ilə birgə işıq olar, müqəddəs amalların əmələ çevrilməsində güc mənbəyi olar. Məlumdur ki, Həzrəti Əli obrazı zamanından üzü bəri saysız-hesabsız qələm sahiblərinin tərənnümündədir. Bu günlərdə sosial şəbəkədə ilhamlı şair, şərqşünas Ələmdar Mahirin Həzrəti Əliyə həsr olunmuş təxmisini öz ifasında dinlədim. Bəli, Əli bu gün də şairlərin ilham mənbəyidir.

Ə.R.Xələfli Əlini tərənnüm edən qaynaqlardan məharətlə bəhrələnib. Kitabda Füzulinin «Ya Əli» qəzəlinin təxmisi də var. Müəllif böyük Füzulinin möhtəşəm qəzəlini məharətlə təxmis edib. Bu günün sənətkarı Mövlanə Füzulinin qəzəlini sevgi ilə, hər bir misranı sevə-sevə öz yazdıqlarına dayaq gətirib. Doğrudur, müəllifin təxmisdə ifadə etdiyi şeiri heca vəznindədir. Ancaq obraza sevgi, şairin ilhamı heca ilə əruz arasındakı fərqi görünməz edir. Mən istərdim ki, burada Füzulinin həmin «Ya Əli» qəzəlini olduğu kimi oxuculara çatdırım. Qoy oxucular ayrıca mətndə Əli sevgisilə süslənmiş Füzuli ruhunu da varlıqlarına çəksinlər.

Əzbər olmuşdur dilimdə şanlı namın, ya Əli!
Mən kiməm, aləmdə bir kəmtər qulamın, ya Əli!

Şükr ola Allahə kim sayə salıbdır başimə,
Dövləti-iqbal ilə lütfi-müdamın, ya Əli!

Müshəfi-həqdə olan hər hikmətin mənasıdır,
Hikmətin kani olan hər bir kəlamın, ya Əli!

Kim nəcat istər Qiyamətdə, gərəkdir saxlaya,
Taəti-həqq tək həmişə ehtiramın, ya Əli!

Cümlə insanlar, mələklər Kəbə tək məbəd sanar,
Hər yerin kim orda olmuşdur məqamın, ya Əli!

Hər kəs istəsə, cahanda çərxidən alsın murad,
Kama çatmaz olmasa, lütfi-tamamın, ya Əli!

Lütfi-süfrəndən sənin hər ləhzədə min feyz alır,
Bu Füzuli vird edər həmdi-salamın, ya Əli!

Göründüyü kimi, bu qəzəldə Əliyə olan ehtiramın, onun hər bir kəlamının ucalığı, məqamının əlyetməzliyi, lütfünün, salamının müqəddəsliyi tərənnüm olunur. Şair özünü Əli ucalığının müqabilində onun «kəmtər qulamı» olduğunu da qeyd edir. Bir sözlə, Füzuli Əliyə müraciət edərək onun şanlı namının dilində əzbər olduğunu şövqlə bəyan edir.

Mən düşünürəm ki, bu tərənnüm böyük sevginin bəhrəsidir. Bugünki gəncliyə sevginin müqəddəsliyini, amala sədaqətin, vəfanın dönməzliyini göstərmək üçün bədii nümunə ən gözəl örnəkdir. Ə.R.Xələflinin Füzulinin qəzəlinə olan təxmisi məhz bu günün düşüncəsində də Əli obrazının müasirlik məzmunu kəsb etdiyini təsdiq etməyə bilmərik.

Onu da deyim ki, Ə.R.Xələfli, bəlkə də, ədəbiyyatımızda ilkin nümunələrdən biri kimi öz qəsidəsini də təxmis etmişdir. Özü də həmin təxmis ədəbi-bədii cəhətdən də kifayət qədər kamilliklə və yüksək ilhamla qələmə alınıb. Elə kitabın adı da həmin təxmisdən - yəni «Aşiqliyin işığında» təxmisindən əxz olunub.

Ə.R.Xələfli XIX əsrin məşhur sufi-təriqət şairi Mir Həmzə Seyid Nigarinin də sevdalısıdır. Seyid Nigarinin ədəbi tədqiqata cəlb olunmasında, bu böyük sənətkarımızın gündəmə gətirilməsində onun və rəhbərlik etdiyi «Kredo» qəzeti kollektivinin də böyük xidmətləri olmuşdur. Azərbaycanda ilk dəfə Seyid Nigarinin divanını müəyyən kəm-kəsirlərlə olsa da «Xaki-payin taci-sərim» adı ilə 2004-cü ildə çap etdirib. Elə «Aşiqliyin işığında» kitabında da Seyid Nigaridən bəhrələnmələr, təxmislər, müraciətlər kifayət qədər yer alıb. Bu da ondan irəli gəlir ki, Seyid Nigari də Həzrəti Əlinin böyük aşiqlərindəndir. Yeri gəlmişkən, Əli Rza Xələfli söhbətlərində qeyd edir ki, *"...çox istedadlı şərqşünas, klassikamızın çox fəhmli tədqiqatçılarından biri, Əlyazmalar İnstitutunun əməkdaşı, professor Nəzakət Məmmədli Seyid Nigari "Divan"ının son illərdə mükəmməl nəşrini çapa hazırladı. Ədəbiyyatımızın ölməz abidələrindən biri kimi Seyid Nigari yaradıcılığına hədsiz sevgiləri olan Hacı Siracəddin və Nizaməddin qardaşlarının maddi və mənəvi dəstəyi sayəsində həmin "Divan" nəşr olundu və möhtərəm oxuculara çatdırıldı. Çox təəssüf ki, həyatının qaynar, yaradıcılığının kamillik çağında Nəzakət Məmmədli bu günlərdə qəflətən dünyasını dəyişdi. Düşünürəm ki, onun Seyid Nigari yolundakı xidmətləri elə özünə də bir abidədir".* Bəli, bu, Ə.R.Xələflinin qədirbilənlik düşüncələridir.

Həzrəti Əliyə həsr olunmuş tərci məhz həmin nəşrdən əxz olunub. Mənə elə gəlir ki, Seyid Nigarinin də zəngin yaradıcılığından Həzrəti Əliyə həsr olunmuş tərcini burada bütöv şəkildə oxuculara təqdim etməyim bizdən əvvəlki ululara ehtiramımızın ifadəsi olardı.

Əlminnətilillah ki lütfi-əzəlidən
Səhba çəkərəm şamü səhər cami-cəlidən.
Keçdim xəbəri-bihudə cəngü cədəlidən
Əlmi çəkərəm daməni-sərdari-vəlidən?
"Ya Rəb, bəni ayırma şəhənşahi-vəlidən
Ya Rəb, bəni dur eyləmə övladi-Əlidən".

Suzanə ələm sinədə dağ nişanım,
Pərvaneyi-övlad ilədir şöhrətü şanım,
İsbat ilə oynar bədənim, ruhi-rəvanım,
Ta var həyatım budur əzkari-zəbanım:
"Ya Rəb, bəni ayırma şəhənşahi-vəlidən
Ya Rəb, bəni dur eyləmə övladi-Əlidən".

Canımda yanar şamü səhər atəşi-suzan,
Sönməz nə qədər ursam əgər abi-firavan,
Övladi-Məhəmməd ilədir zövqi-şirin can,
Bu fikr ilədir bəxt yegin, təb" qəzəlxan:
"Ya Rəb, bəni ayırma şəhənşahi-vəlidən
Ya Rəb, bəni dur eyləmə övladi-Əlidən".

Can riştəsidir silsileyi-ali-Məhəmməd
Dil mayəsidir, ali-fərəhfali-Məhəmməd
Fikrim bu ki bəndən ola xoşhal Məhəmməd
Zikrim budur, ey aşiqi-əbdali-Məhəmməd:
"Ya Rəb, bəni ayırma şəhənşahi-vəlidən
Ya Rəb, bəni dur eyləmə övladi-Əlidən".

Canimdə ki var zövqi-cigərguşeyi-Zəhra
Xövf eyləməzəm gər ola aləm həme bərpa
Vəhm eyləməzəm, həşr qəmin çəkməzəm əsla,
Bəsdir bana dareyndə bu nəzmi-dilara:
"Ya Rəb, bəni ayırma şəhənşahi-vəlidən
Ya Rəb, bəni dur eyləmə övladi-Əlidən".

Sən karına bax, ey dili-müştaqi-fədakar,
Bivayə qoyarmı qulu kərrari-kərəmkar.
Dinlə bəni, ey bəxti yegin, taleyi bidar,
Bu nəzmi-dilavizi dəmadəm elə təkrar:
"Yarəb, bəni ayırma şəhənşahi-vəlidən,
Yarəb, bəni dur eyləmə övladi-Əlidən".

Dareyndə tut daməni-damadi-Peyğəmbər
İmdadına bişübhə yetər fatehi-Xeybər.
Ey bəxti yegin, Mir Nigariyi-xoşəxtər,
Hər şamü səhər qıl bu iki misranı əzbər:
"Ya Rəb, bəni ayırma şəhənşahi-vəlidən
Ya Rəb, bəni dur eyləmə övladi-Əlidən".

Kitabda yer alan çox ruhlu bir qoşma da diqqətimi cəlb etdi. Bu qoşmada sanki Dirili Qurbaninin ruhu çırpınır. Təsadüfi deyil ki, Ə.R.Xələfli özü də Dirili Qurbaninin yurdundandır. Orada doğulub, böyüyüb. Mənəvi mühitinə Qurbani yaradıcılığının təsirini təbii qəbul etməliyik.

**(Davamı 16-cı səhifədə)**

# ULULARA SEVGİ İLƏ




*(Əvvəli 9-cu səhifədə)*

Mən Ə.R.Xələflidən Dirili Qurbani yaradıcılığında Əli obrazının istiqamətləri ilə bağlı məlumat soruşdum. O, bu mövzuda çox böyük həvəslə danışdı: *«Məlumdur ki, Dirili Qurbani XV əsrin axırlarında XVI əsrin əvvəllərində yaşayıb. Özü də Şah İsmayıl Xətai sarayına yaxın olub. Şah İsmayılın şəninə nəğmələr qoşub. Ozan sənəti ilə aşıq sənətinin arasında ilkin körpülərdən biri kimi tanınan Dirili Qurbani həm də Həzrəti Əli sevdalısı olub. Dastanlardan və rəvayətlərdən belə məlum olur ki, ona eşq badəsini yuxuda məhz Həzrəti Əli verib. O, Əlini müxtəlif adlarla - Mürtəza, Heydər, Ərənlər ərəni, Allahın aslanı-Əsədullah və s. ünvanlarla tərənnüm edib. Qurbaninin adı ilə bağlı 1983-cü ildə «Qurbani saz bayramı» da keçirilib. Bu, Dirili Qurbaninin yeni dövrdə ilk yaddaşa gətirilən zamanı idi. Dirili Qurbani ilə bağlı Salman Mümtazın, Məhəmməd Hüseyn Təhmasibin araşdırmaları var. İlk dəfə Qurbani obrazı, Qurbani yaradıcılığı elmi şəkildə professor, Əməkdar elm xadimi Qəzənfər Kazımov tərəfindən öyrənilib. Əsərləri ayrıca kitab halında çap olunub. Haqqında professor «Qurbaninin poetikası» adlı çox dəyərli elmi monoqrafiya da yazıb, nəşr etdirib. Sonrakı nəsil folklorçulardan Tariyel Abbaslı da Dirili Qurbani yaradıcılığına dair dissertasiya işi yazıb, müdafiə edib. Bir sözlə, Həzrəti Əli obrazı Dirili Qurbaninin də ilham mənbəyi olub».* Ə.R.Xələflinin bu sözlərinə nəsə əlavə etmək fikrim yoxdur. Ancaq onun kitabda verilmiş çox dəyərli «Əlidir, Əli» rədifli qoşmasından iki bəndi yada salıram:

Xudafərin üstə Dirinin dərdi
Göz görə qəlbimi qana döndərdi,
Qurbani ruhuma səda göndərdi,
Allahın aslanı Əlidir, Əli.

Gələ, Qurbanini dil-dil öyərəm,
Canımın içində qəmlər yeyərəm.
Soruşsa, qonağın kimdir, - deyərəm,
Qəlbimin mehmanı Əlidir, Əli.

Göründüyü kimi, bu iki bənddə bir çox tarixi həqiqətlər öz əksini tapıb. Xudafərin dərdi yada salınır, hətta işğal ağrıları da duyulur. Eləcə də Həzrəti Əlidən Dirili Qurbaniyə gələn yol da görünür.

Həzrəti Əlinin hikmətləri dillərdə əzbərdir. Onun fikir gözəlliyini ehtiva edən sözləri məclislərimizin bəzəyidir. Onu da qeyd edim ki, Əliyə həsr olunmuş şeirlərin, bədii örnəklərin hamısında biz insanlığı kamilliyə çağıran güc görürük. Çünki bu sənət örnəklərində Əlinin müqəddəs mənəviyyatının saflığını və duruluğunu görürük. Şeyx Şamilə yardım üçün Seyid Nigarinin mənən silahlandırıb göndərdiyi müridlər Əlini vəsf edən şeirlərini dillərində əzbər söyləyir, nəğmə kimi oxuyaraq yağı üstünə şığıyırdılar. Əli ruhuna sevgili münasibət ululara sevginin təsdiqidir.

Əli Rza Xələflinin «Aşiqliyin işığında» kitabını oxucular arasında məşhur olacağına, seviləcəyinə inanıram.

*Şirvan şəhəri,*
*05.02.2025*

№ 11 (1267) 04 aprel 2025-ci il